# NİFAQA SON QOYULAN GÜN



***Azərbaycan xalqının yaddaşına həkk olunan və tarixinə qızıl hərflərlə yazılan 1993-cü il iyunun 15-i Qurtuluş Günü, Türk dünyasının fenomeni, əbədiyaşar Heydər Əliyevin ölkəmizin dərin ictimai-siyasi və iqtisadi böhrandan çıxarılmasında, vətəndaş müharibəsinin qarşısının alınmasında, müstəqilliyimizin qorunub möhkəmləndirilməsində, dövlətimizin bütün sahələrdə uğurlar qazanmasında, beynəlxalq aləmə sürətli inteqrasiyasında müstəsna xidmətləri kimi qiymətləndirilir. Vətənini, xalqını sevən, həmin çətin, ağrılı günlərin dəhşətlərini yaşayan, hadisələrin şahidi olan insanlar üçün 15 iyun əsl qurtuluş günü, Azərbaycanın şanlı dövlətçilik tarixidir. Bu tarixi yaradan isə respublikamızın inkişafında, müstəqilliyində, gələcəyində müstəsna rol oynayan, daim xalqına arxalanan və xalqa arxa olan bir insandır - ümummilli lider Heydər Əliyev.***

Bəli, məhz onun qətiyyəti və cəsarəti ilə 1993-cü ilin 15 iyun günü xalqımızın mübarizələrlə dolu tarixinə yeni eranın başlanğıcı kimi daxil oldu. Heydər Əliyevin xalqın təkidli tələbi ilə siyasi hakimiyyətə qayıdışı ilə qoca Qafqazın bu bölgəsində yeni siyasi dövr başlandı və bu yeni dövr Azərbaycanın XXI əsrə hüquqi, demokratik dövlət kimi daxil olmasına əsaslı təminat yaratdı.

1991-ci ildə Azərbaycanda olduqca təhlükəli bir vəziyyət yaranmışdı. Ölkədə müharibə gedirdi, idarəçilik yox dərəcəsindəydi. Respublikada xaos, anarxiya hökm sürürdü. İqtisadiyyat bərbad hala düşmüşdü, keçmiş sovet dönəmində Heydər Əliyevin qurub-yaratdığı iqtisadi potensial amansızcasına dağıdılırdı. Respublikamızda sabitliyin bərpa olunacağına ümid yox idi. Xalq daha ağır vəziyyətə düşə bilərdi. Daha bir addım bəs idi ki, xalq dərin uçuruma yuvarlansın. Problemlər baş alıb gedirdi. Həmin problemləri aradan qaldıra biləcək yeganə qüvvə isə yalnız Heydər Əliyev şəxsiyyəti ola bilərdi. Ölkəni görünməmiş bəlalardan xilas etmək üçün lazım olan enerji, müdriklik və uzaqgörənlik yalnız bu nadir insanda var idi. Təşviş içərisində olan Azərbaycan xalqının sabaha ümidi sarsılmış, ölkəmiz real vətəndaş müharibəsi və separatçılıq meyilləri ilə üzüzə qalmışdı. Müstəqilliyini yenicə bərpa etmiş ölkəmiz onu itirmək təhlükəsi qarşısında qalmışdı. 1918-ci ildə yaranan Azərbaycan Demokratik Respublikasının ömrü cəmi 23 ay çəkdi, onun varisi kimi yaranan Azərbaycan dövlətinin ömrü isə daha qısa ola bilərdi.

Yeganə nicat yolunu Heydər Əliyevin qayıdışında görən Azərbaycan xalqı onu təkidlə hakimiyyətə çağırırdı, amma şəxsi ambisiyalarını milli maraqlardan üstün tutan hakimiyyət hərisləri bütün gücləri ilə buna mane olur, silahlı dəstələr yaradırdılar. Həmçinin bütün güc strukturlarının siyasiləşməsi dövlət və dövlətçilik üçün böyük təhlükə olan cəzasızlıq şəraiti yaratmışdı. Azərbaycanın müstəqilliyinin və ərazi bütövlüyünün ciddi təhlükə qarşısında qaldığı vaxt Heydər Əliyevə müraciət edən xalqımız inanırdı ki, respublikamızı düşdüyü bu ağır vəziyyətdən, sosial-iqtisadi, hərbi-siyasi böhrandan yalnız Heydər Əliyev xilas edə bilər. Məhz bu baxımdan xalq özünün sınanmış liderini hakimiyyətə gəlməyə, müstəqil Azərbaycan dövlətini xilas etməyə israrla dəvət etdi. Xalqın qəzəbindən qorxan hökumət də Heydər Əliyevin hakimiyyətə gəlməsini tələb edən ziyalıların səsinə səs verdi. Xilaskarlıq missiyasını öz üzərinə götürən dahi şəxsiyyət həyatını təhlükə altında qoyaraq Gəncəyə gəldi. Hadisələrin daha faciəli nəticələrə gətirib çıxarmaması üçün öz ağsaqqal sözünü dedi. İnamla söyləyə bilərik ki, Heydər Əliyevin Gəncəyə səfəri vətəndaş qarşıdurmasının qarşısını aldı. Ulu öndər qətiyyətlə, inamla bəyan etdi: "Azərbaycan dövlətinin müstəqilliyi əbədi olacaqdır, sarsılmaz olacaqdır, dönməz olacaqdır və Azərbaycanın bugünkü gənc nəsli gələcək Azərbaycanı daha da yüksəklərə qaldıracaqdır". Təbii ki, bu gün hər birimiz bunun şahidləriyik. Fenomen şəxsiyyət bütün varlığı ilə sevdiyi Azərbaycanın müstəqilliyini möhkəmləndirmək, inkişaf etmiş, sivil dünya dövlətləri cərgəsinə çıxarmaq, arzusunda olduğu müasir Azərbaycanın reallaşması naminə var gücü ilə çalışdı və uğurlar qazandı. "Mən həmişə fəxr etmişəm, bu gün də fəxr edirəm ki, mən azərbaycanlıyam", - deyən ulu öndər 2001-ci ilin noyabrında Bakıda dünya azərbaycanlılarının I qurultayının keçirilməsinə nail oldu. Heydər Əliyev tərəfindən cəmiyyət və dövlət həyatının bütün sahələrində olduğu kimi, hüquqi sahədə də köklü islahatlar aparıldı. Bu islahatların həyata keçirilməsinin əsasını "Heydər Əliyev Konstitusiyası" kimi tarixə düşən, 1995-ci il noyabrın 12-də ümumxalq səsverməsi ilə qəbul olunan ilk Milli Konstitusiyamız oldu. Konstitusiya müddəalarının həyata keçirilməsi, demokratik təsisatların və qanunun aliliyi prinsiplərinin möhkəmləndirilməsi, hüquqi islahatların ardıcıl və keyfiyyətlə aparılması üçün Hüquqi İslahat Komissiyası yaradıldı.

Hüquq sahəsində islahatların mütəşəkkil aparılmasına xüsusi əhəmiyyət verən ümummilli lider Hüquqi İslahat Komissiyasına rəhbərliyi bilavasitə öz üzərinə götürdü, qısa müddət ərzində hüquq sisteminin təməlini təşkil edən mühüm qanun və məcəllələr qəbul edildi, məhkəmə və hüquq-mühafizə orqanlarının funksiya və səlahiyyətlərinə yenidən baxıldı. Bu gün biz fəxrlə deyə bilərik ki, ali məqsədi insan haqlarının müdafiəsi olan Azərbaycanın yeni hüquq sisteminin də müəllifi məhz ümummilli liderimiz Heydər Əliyevdir. Bu gün hər birimiz dərk edirik ki, müstəqil Azərbaycan dövləti bütün həyatı və fəaliyyəti tariximizə qızıl hərflərlə həkk olunmuş Heydər Əliyevin şah əsəri əsrlər boyu yaşayacaq möhtəşəm abidədir. Bəli, 1993-cü il iyunun 15-də ulu öndər Heydər Əliyevin xalqın tələbi ilə Ali Sovetin sədri seçildiyi gün elan etdiyi kimi, ömrünün qalan hissəsini Azərbaycanın müstəqil dövlət kimi inkişaf etməsinə həsr etdi, xalqın qəlbində, tarixində öz əbədi abidəsini ucaltdı. Heydər Əliyevin Azərbaycan xalqı qarşısında ən böyük xidmətlərindən biri də öz siyasi varisi İlham Əliyevi ərsəyə çatdıraraq müstəqil dövlətimizin ardıcıl inkişafı üçün zəmin yaratmasıdır. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev dahi şəxsiyyət Heydər Əliyevin siyasi kursunu qəti və prinsipial mövqeyi ilə davam etdirməklə xalqın böyük etimadını qazanmış, qısa müddət ərzində əhalinin rifahının yaxşılaşmasında müstəsna rol oynayan tədbirlər həyata keçirilmiş, hər bir vətəndaşın hüququna hörmətlə yanaşılması, qayğı göstərilməsi bütün dövlət strukturlarının qarşısında ali məqsəd kimi qoyulmuşdur.

Bu gün Azərbaycan xalqı unudulmaz rəhbərin xoşbəxt gələcəyimiz üçün açdığı yolla qətiyyətlə addımlayır. Xalq və iqtidarın monolit birliyi nəticəsində ümummilli liderin qurub-yaratdığı azad, müstəqil, demokratik Azərbaycan onun müəyyən etdiyi strateji xətlə inkişafını davam etdirir. Bu xətti əzmlə, dəyanətlə irəli aparan isə ulu öndərin layiqli varisi, dövlət xadimi, dünya miqyasında böyük hörmətə, nüfuza malik Prezident İlham Əliyevdir. Dövlətimiz və xalqımızın həyatı üçün ən mühüm əhəmiyyət kəsb edən prinsipial məsələlərdə ölkə Prezidenti cənab İlham Əliyev də Heydər Əliyevə xas olan möhkəm iradə və qətiyyətli mövqe nümayiş etdirir, Azərbaycan dövlətinin qüdrətini öz məhsuldar fəaliyyəti ilə sübut edir. Prezidentimizin apardığı dərin düşünülmüş, uzaqgörən daxili və xarici siyasət, onun xalqa olan səmimi məhəbbəti və doğma Vətənimiz naminə səmərəli fəaliyyəti hər birimizdə qürur hissi oyadır. Xalqımızın firavan gələcəyinin təminatına hesablanmış praqmatik siyasi strategiya sayəsində Azərbaycan regionun lider dövlətinə çevrilmiş, ölkəmizin nüfuzu daha da artmışdır. Prezident İlham Əliyevin səriştəli idarəetmə qabiliyyətinin nəticəsidir ki, indi respublikamız iqtisadi inkişaf tempinə görə dünyanın ən qabaqcıl ölkələrindən biridir. Bir sözlə, Milli Qurtuluş Günü - Azərbaycanın indiki reallıqlarının və xoşbəxt gələcəyinin rəhnidir. Bu irəliləyişin, bu inkişafın əsası da məhz 1993-cü il iyunun 15-də ümummilli lider Heydər Əliyevin xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdışı günü qoyulmuşdur.

**Nurəddin MƏMMƏDOV,**
**Gəncə Ağsaqqallar Şurasının sədri, professor, əməkdar müəllim.**

və dünya xalqları içərisində fərqlənir. Bu